Hesabat sxemi

Bir şəxs tərəfindən atletika ilə əlaqəli kimsə haqqında ifadə olunan narahatlıq və ya şübhə.

Uşaq və ya böyüklər dərhal təhlükə altındadır və ya tibbi yardıma ehtiyacı varmı?

Xeyr

Razılıq?

Bəli

Razılıq?

Bu mərhələdə daha çox məlumatın toplanmasını təmin etmək üçün xüsusi form doldurulmalı və surəti Azərbaycan Atletika Federasiyasının sertifikatlı Mühafizə İşçisinə göndərilməlidir. Həssas məsələlərdə kənardan psixoloq cəlb edilə bilər.

Təhlükəsiz idman inspektoru dərhal cavab vermək üçün əlçatmazdırsa, potensial uşaq müdafiəsi məsələsi ilə bağlı polis, hüquq-mühafizə və ya sosial xidmət orqanları ilə əlaqə saxlayın.

- İdmanda təhlükəsizlik Siyasətində sui-istifadə və təqib anlayışına qarşı insidentin qiymətləndirilməsi üçün AAF-ın Təhlükəsiz idman inspektoru ilə əlaqə saxlayın
- Narahatlığın xarakterindən asılı olaraq müvafiq tədbirlər görüləcək
- Bütün addımlar qeyd olunacaq.

Qeyd: Federasiya narahatlığı qaldıran məlumat verən şəxsin müdafiəsini təmin edəcək.

- Hüquq-mühafizə orqanları, polis və ya təcili yardım xidmətləri ilə əlaqə saxlayın.
- Hər kəsin təhlükəsizliyini təmin edin
- Fövqəladə hallar üzrə prosedurları müəyyən etmək üçün Təhlükəsiz idman inspektorunu cəlb edin

Təhlükəsiz idman inspektoru cinayətin törədilməsində şübhə yaranarsa, polisin gəlməsini gözləyərkən hadisənin baş verdiyi ərazinin potensial cinayət yeri kimi mühafizəsini təmin edəcək.

Təhlükəsiz idman inspektoru məlumat təhlili aparır, kəşfiyyat məlumatlarını toplayır, yerli qurumlar və dövlət orqanları ilə əlaqə qurur. **Qeyd:** Təhlükəsiz idman inspektoru və/və ya psixoloq bütün addımlarda dəstək verir və məsələni izləyir.

Potensial qeyri-qanuni davranış ↔ Potensial intizam məsələsi

İşin necə inkişaf etməsindən asılı olaraq, müvəqqəti dayandırma nəzərdən keçirilə bilər; İşlə bağlı şərait və faktlardan asılı olaraq intizam tədbirləri görülə bilər.

Vasitəçilik yolu uğursuz alınsa, hüquq-mühafizə orqanlarına müraciət edilir.

Mübahisəni həll etmək və məsələnin mahiyyətinə əsaslanaraq qarşılıqlı razılıq əsasında danışıqlar aparmaq üçün alternativ üsul kimi Vasitəçiliyi təklif edirik.

Tərəflər bu prosesdən keçməyə razılıq verərsə, iki vasitəçi – biri kişi və biri qadın vasitəçilik prosesinə başlayır. Bu, balanslaşdırılmış gender nisbətini qorumaq üçün edilir.

Təhlükəsiz idman inspektoru prosesə dəstək və təlimat vermək üçün bütün tərəflərlə əlaqə saxlayır

Məhkəmə prosesinin və/və ya intizam prosesinin nəticəsi qeyd olunur və bütün tərəflərə çatdırılır.